“Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi” PHŞ

31.12.2023-cü il tarixinə maliyyə hesabatları və Müstəqil Auditor Hesabatı

2024

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatında şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ-nin maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və mövcud qanunvericiliyə müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi
- Mövcud qanunvericiliyə uyğunluğun bəyan edilməsi və əgər əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi
- Əgər yaxın gələcəkdə "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ-nin normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının daimlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ-nin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi
- Maliyyə hesabatlarının mövcud qanunvericiliyə uyğun olaraq düzgün hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi
- Mümkün imkanlardan istifadə edərək "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ-nin aktivlərinin mühafizə edilməsinin təşkil olunması
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

İdarə Heyətinin sədri | **Maliyyə və təminat şöbəsinin müdiri** | **Baş mühasib**

M.Y.

Auditorlar Palatası
SƏRBƏST AUDİTOR

Chamber of Auditors
İNDEPENDENT AUDİTOR

VÖEN : 1305438502 ünvan: Bakı şəh., Nizami küç. 104 e-mail: elvinaliyev@live.ru

MÜSTƏQİL AUDİTOR HESABATI

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi"

RƏY

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" (bundan sonra Mərkəz) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparılmışdır.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Mərkəzin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Mərkəzdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandlrmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və Mərkəzin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Mərkəzini ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Mərkəzin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və idarəetməyə məsul şəxslər Mərkəzin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub – olmadığına dair kafi əminlik əldə etmək və rəyin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Auditor E. Əliyev

Bakı şəhəri, Azərbaycan Respublikası

25.12.2024

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

31 dekabr 2023-cü il tarixə

AZN

Bölmə və maddələrin adı	Qeyd	2023	2022
Aktivlər			
Uzunmüddətli aktivlər			
Qeyri maddi aktivlər		4 800,00	-
Torpaq, tikili və avadanlıq		677 114,43	692 814,00
İnvestisiya mülkiyyəti		-	-
Uzunmüddətli debitor borcları		-	-
Gələcək dövrün xərcləri		-	-
Sair uzunmüddətli maliyyə aktivləri		346 800,00	117 000,00
Cəmi uzunmüddətli aktivlər		**1 028 714,43**	**809 814,00**
Cari aktivlər			
Ehtiyatlar		36 714,64	25 504 888,00
Qısamüddətli debitor borcları		203 654,45	305 874,00
Pul vəsaitləri və onların ekvivalrentləri		5 452 383,64	4 288 820,00
Sair qısamüddətli maliyyə aktivləri		-	-
Sair qısamüddətli aktivlər		1 453,95	2 788,00
Cəmi cari aktivlər		**5 694 206,68**	**30 102 370,00**
Cəmi aktivlər		**6 722 921,11**	**30 912 184,00**
Öhdəliklər və kapital			
Uzunmüddətli öhdəliklər			
Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər		-	-
Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər		-	-
Təxirə salınmış vergi öhdəlikləri		-	-
Uzunmüddətli kreditor borcları		-	-
Sair uzunmüddətli öhdəliklər		-	-
Cəmi uzunmüddətli öhdəliklər		-	-
Cari öhdəliklər			
Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər		-	-
Qısamüddətli qiymətləndirilmiş öhdəliklər		14 873,88	-
Vergi və sairə məcburi ödənişlər üzrə öhdəliklər		18 252,57	61 704,00
Qısamüddətli kreditor borcları		-	1 714,00
Gələcək hesabat dövrünün gəlirləri		11 087,41	19 080,00
Məqsədli maliyyələşmələr və daxilolmalar		5 904 289,31	4 235 433,00
Cəmi qısamüddətli öhdəliklər		**5 948 503,17**	**4 317 931,00**
Xalis aktivlər və kapital			
Nizamnamə kapitalı		708 232,00	708 232,00
Emissiya gəliri		-	-
Geri alınmış kapital (səhmlər)		-	-
Kapital ehtiyatları			25 444 611,00
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)		66 185,94	441 410,00
Cəmi xalis aktivlər və kapital		**774 417,94**	**26 594 253,00**
Cəmi öhdəliklər və kapital		**6 722 921,11**	**30 912 184,00**
		-	-

İdarə heyətinin sədri

Maliyyə və təminat şöbəsinin müdiri

M.Y.

Baş mühasib

Məcmu mənfəət və zərər haqqında hesabat

31 dekabr 2023-cü il tarixə

AZN

Bölmə və maddələrin adı	Qeyd	2023	2022
Gəlirlər			
Əsas əməliyyat gəlirləri		825 097,00	805 595,00
Dövlət büdcəsindən daxilolma (Mərkəzin xərclərinin qarşılanması məqsədi ilə)		1 150 000,00	1 000 000,00
Faiz gəlirləri, royalti və dividendlər		32 238,00	-
Sair əməliyyat gəlirləri		-	-
Cəmi əməliyyat gəlirləri		**2 007 335,00**	**1 805 595,00**
Xərclər			
Material xərcləri		-	-
Kommersiya xərcləri		-	-
Əmək haqqı xərcləri və sosial ayirmalar		2 101 699,72	1 528 678,00
Maliyyə xərcləri		-	-
Sair əməliyyat xərcləri		178 078,70	143 078,00
Cəmi əməliyyat xərcləri		**2 279 778,41**	**1 671 756,00**
Əməliyyat mənfəəti (zərərlər)		- 272 443,41	133 839,00
Ümumi mənfəət (zərər)		- 272 443,41	133 839,00
Mənfəət vergisi		-	-
Hesabat dövrünün sonuna maliyyə nəticələri		**- 272 443,41**	**133 839,00**

İdarə heyətinin sədri

Maliyyə və təminat şöbəsinin müdiri M.Y.

Baş mühasib

"Korporativ İdarəetmənin Təşkili və KoordinasiyaMərkəzi" PHŞ

Kapitalda dəyişikliklər hesabatı

31 dekabr 2023-cü il tarixə

AZN

	Nizamnamə kapitalı	Kapital Ehtiyatları	Bölüşdürülməmiş mənfəət	Cəmi
01 yanvar 2023-cü il tarixə qalıq	**708 232,00**	**25 444 611,23**	**441 410,34**	**26 594 253,57**
Daxil olub	-	131 737 092,61	-	**131 737 092,61**
İstifadə olunub	-	157 181 703,84	375 224,40	**157 556 928,24**
31 dekabr 2023-cü il tarixə qalıq	**708 232,00**	-	**66 185,94**	**774 417,94**

İdarə heyətinin sədri

Maliyyə və təminat şöbəsinin müdiri

Baş mühasib

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

31 dekabr 2023-cü il tarixə

AZN

	2023	2022
Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti		
Müştərilərdən daxilolmalar	1 041 038,92	859 484,72
Mal və xidmətlərə görə təchizatçılara ödənişlər	132 356,82	240 418,58
İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri	1 902 417,01	1 313 202,00
Vergi ödənişləri	464 558,56	158 706,74
Digər əməliyyat fəaliyyətilə bağlı pul vəsaitləri ödənişləri	-	-
Əməliyyat fəaliyyətləri üzrə xalis pul vəsaitlərinin artımı (azalması)	**- 1 458 293,47**	**- 852 842,60**
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti		
Torpaq,tikili və avadanlıqların,qeyri- maddi aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları	-	-
Torpaq,tikili və avadanlıqların,qeyri- maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları	8 403,39	59 856,00
Digər tərəfə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları	392 500,00	145 000,00
Digər tərəfə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları	622 300,00	245 000,00
Digər təsərrüfat subyektlərinin satılmasından daxil olan pul vəsaitləri	-	-
Kreditlərin qaytarılmasından yaranan pul vəsaitlərinin mədaxili	-	-
Dividendlər və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları	-	-
Faiz daxilolmaları	32 237,46	-
Cəmi investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti	**- 205 965,93**	**- 159 856,00**
Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti		
Nizamnamə kapitalına və ehtiyat fondlarına ayırmalar üzrə daxilolmalar	-	-
Qiymətli kağızların buraxılışından daxilolmalar	-	-
Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları	4 809 000,00	4 765 433,00
Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları	-	-
Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin digər xaricolmaları	1 981 177,58	-
Borc şəklində alınmış vəsaitlərə görə geri qaytarmalardan məxaric	-	-
Cəmi maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti	2 827 822,42	4 765 433,00
Cəmi mədaxil olunan pul	**6 274 776,38**	**5 769 917,72**
Cəmi məxaric olunan pul	**5 111 213,36**	**2 017 183,32**
Dövrün əvvəlinə olan qalıq	**4 288 819,95**	**536 085,55**
Dövrün sonuna qalıq	**5 452 382,97**	**4 288 819,95**
Pul vəsaitlərinin artması (azalması)	**1 163 563,02**	**3 752 734,40**

İdarə heyətinin sədri

Maliyyə və təminat şöbəsinin müdiri M.Y.

Baş mühasib

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ

UÇOT SIYASƏTI VƏ MALIYYƏ HESABATLARINA QEYDLƏR

31 dekabr 2023-cü il tarixində başa çatmiş il üzrə

MÜƏSSİSƏ HAQQINDA MƏLUMAT

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya mərkəzi" Publik Hüquqi Şəxs Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin 06.12.2005-cu il tarixli 11 saylı əmri ilə keçmiş Ticarət və Xidmət Müəssisə və Obyektlərin Fəaliyyətinin Əlaqələndirilməsi Mərkəzinin əmlakının bazasında yaradılmışdır.

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya mərkəzi" Publik Hüquqi Şəxs Azərbaycan Respublikası Vergilər Nazirliyinin Bakı şəhəri Vergilər Departamentində qeydiyyatdan keçmiş və ona 1500042851 saylı VÖEN verilmişdir.

Mərkəzin əsas fəaliyyəti dövlət əmlakının özəlləşdirilməsi prosesində tabeliyinə verilmiş ticarət, xidmət, istehsal və digər müəssisə və obyektlərin idarə edilməsindən, onların əmlakının qorunub saxlanılmasını və özəlləşdirilməyə hazırlanması sahəsində zəruri tədbirlərin həyata keçirilməsindən, özəlləşdirilənədək dövlət əmlakından səmərəli istifadə olumması üçün həmin müəssisə və obyektlərin fəaliyyəinin əlaqələndirilməsindən ibarətdir.

Mərkəzin maliyyə-təsərrüfat fəaliyyətinə aşağıdakı şəxslər cavabdehdirlər:

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya mərkəzi" Publik Hüquqi Şəxsin idarə heyətinin sədri: İsalı Toğrul Fəxrəddin

Maliyyə və təminat şöbəsinin müdiri – Sərxan Etibarlı

Maliyyə və təminat şöbəsinin Muhasibat sektoronun müdiri - baş mühasib – Əliyeva Tünzalə Ağalar qızı

Mərkəzin ünvanı: Bakı şəhəri, Heydər Əliyev prospekti 139

TƏQDİMATIN ƏSASI

Mərkəz mühasibat yazılışlarını Azərbaycan mühasibat uçotu qaydaları əsasında aparır.

Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq Mərkəzin maliyyə hesabatlarında tətbiq edilmişdir.

UÇOT METODU

Cəmiyyət üzrə mühasibat uçotu Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 09 dekabr 2019-cu il tarixli Q-15 №li Qərarı ilə təsdiq edilmiş "Müəssisələrin illik mühasibat hesabatları və onun tətbiqi qaydaları" və "Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat" əsasən və 4 may 2018-ci il tarixli, 1140-VQD saylı "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər nəzərə alaraq aparılır.

Maliyyə hesabatları ilkin mühasibat sənədləri əsasında hazırlanmışdır.

ƏMƏLİYYAT VALYUTASI

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan Manatıdır ("AZN")

PUL VƏSAİTLƏRİ VƏ EKVİVALENTLƏRİ

Pul vəsaitləri – nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir.

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" Publik Hüquqi Şəxs Azərbaycan Beynalxalq Bankın "Sənaye" filialında hesablaşma hesabı açmaqla bank əməliyyatlarını Azərbaycan manatı ilə həyata keçirir. Müəssisənin bank rekvizitləri aşağıdakı kimidir:

-hesablaşma hesabı - AZ51İBAZ38060019449975433211
- müxbir hesabı - AZ03NABZ01350100000003002944
- bankın kodu - 805603
- bankın VÖEN-i - 9900001881
- S.W.I.F.T. BİK - İBAZAZ2X

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" Publik Hüquqi Şəxs üzrə pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti aşağıdakı kimi olmuşdur:

	01.01.2023-cü ilə qalıq	**Mədaxil**	**Məxaric**	**31.12.2023-cü ilə qalıq**
Kassa	0,00	0,00	0,00	0,00
Bank hesabı	4272772,83	6190997,18	5017160,85	5446609,16
Depozit hesab	16047,34	116865,82	127138,68	5774,48
Cəmi:	**4288820,17**	**6307863,00**	**5144299,53**	**5452383,64**

XARİCİ VALYUTA ƏMƏLİYYATI

Mərkəzin əməliyyat valyutası manatdır. Xarici valyuta ilə əməliyyatı olmadığı üçün banklarda valyuta hesabı yoxdur.

TORPAQ, TİKİLİ, AVADANLIQ VƏ AMORTİZASİYA

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. "İlkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşdirmənin ədalətli dəyərinə bərabərdir.

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" Publik Hüquqi Şəxs üzrə Əsas vəsaitlərin hərəkəti aşağıdakı kimi olmuşdur:

	Bina, qurğular	**Maşın, avadanlıqlar**	**Nəqliyyat vasitələri**	**Yüksək texnologiya avadanlığı**	**Təsərrüfat inventarları**	**Cəmi**
1 yanvar 2023-cü il tarixə ilkin dəyəri	**653085,00**	**425,00**	**29500,00**	**55201,00**	**1275,00**	**739486,00**
Yığılmış amortizasiya	26212,70	0,00	4425,00	16034,30	0,00	46672,00
1 yanvar 2023-cü il tarixə qalıq dəyəri	**626872,30**	**425,00**	**25075,00**	**39166,70**	**1275,00**	**692814,00**
Daxilolmalar	0,00	0,00	0,00	2203,39	1400,00	3603,39
Xaricolmalar						0,00
Amortizasiya hesablamaları	6441,30	425,00	3761,25	8274,16	401,25	19302,96
31 dekabr 2023-cü il tarixə ilkin dəyəri	**653085,00**	**425,00**	**29500,00**	**57404,39**	**2675,00**	**743089,39**
Yığılmış amortizasiya	32654,00	425,00	8186,25	24308,46	401,25	65974,96
31 dekabr 2023-cü il tarixə qalıq dəyəri	**620431,00**	**0,00**	**21313,75**	**33095,93**	**2273,75**	**677114,43**

QEYRİ-MADDİ AKTİVLƏR

Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. Mərkəz ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyər ilə uçota alır ("ilkin dəyər modeli").

Qeyd etmək lazımdır ki, Amortizasiya olunan qeyri-maddi aktivlər üzrə illik amortizasiya normaları istifadə müddəti məlum olmayanlar üçün 10 il, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə müəyyən edilir.

Qeyri maddi aktivlərin hərəkəti aşağıdakı kimidir:

1 yanvar 2023-cü il tarixə balans dəyəri	**0,00**
Yığılmış amortizasiya	0,00
1 yanvar 2023-cü il tarixə qalıq dəyəri	**0,00**
Daxilolmalar	4800,00
Xaricolmalar	0,00
Amortizasiya hesablamaları	0,00
31 dekabr 2023-cü il tarixə balans dəyəri	**4800,00**
Yığılmış amortizasiya	0,00
31 dekabr 2023-cü il tarixə qalıq dəyəri	**4800,00**

EHTİYATLAR

Ehtiyatlar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə qiymətləndirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə hesablanır.

Mərkəzin ehtiyatlarının hərəkəti aşağıdakı kimidir:

	01.01.2023-cü ilə dəyəri	**Mədaxil**	**Məxaric**	**31.12.2023-cü ilə dəyəri**
Material ehtiyatları	0,00	13365,94	9598,30	3767,64
Satış məqsədi ilə saxlanılan digər aktivlər	25485481,00	131747592,61	157222573,61	10500,00
Digər ehtiyatlar	19407,00	3040,00	0,00	22447,00
Cəmi:	**25504888,00**	**131763998,55**	**157232171,91**	**36714,64**

İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR VƏ AİDİYYATI AYIRMALAR

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Mərkəz işçilərin əmək haqqlarından məcburi sosial sığorta haqları tutur və onların Dövlət Sosial Müdafiə Fonduna köçürülür. Bundan əlavə bu tip təqaüd sistemi işəgötürən tərəfindən işçilərin əmək haqqı fondunun müəyyən faizi kimi Dövlət Sosial Müdafiə Fonduna məcburi sosial sığorta haqları ayırmlarını nəzərdə tutur. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Fondu tərəfindən yerinə yetirilir. Mərkəz Dövlət Sosial Müdafiə Fondunun qaydalarından əlavə ümumi əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış işçilər tərəfindən cari yardımları tələb edən pensiya ilə bağlı hər hansı,fərdi qaydalara malik deyildir. Bundan başqa, Mərkəzdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

2023-cü ildə işçilərin orta sayı 50 nəfər, əmək haqqı fondu 1690225,44 manat olmuşdur. İşçilərin əmək haqqı fondundan 369218,64 manat sosial müdafiə fonduna ayırmalar, 8451,13 manat işsislikdən sığorta haqqı və 33804,51 manat icbari tibbi sığorta haqqı hesablanmışdır. İl ərzində əmək haqqından hesablanan sosial ayırmalar təyinatları üzrə müvafiq hesablara ödənilmiş və ilin sonuna sosial ayırmalar üzrə 2295,73 manat borc qalmışdır. İşçilərin əməyinin ödənişi ştat cədvəlinə əsasən hesablanıb ödənilmişdir. İlin sonuna Mərkəzin işçilərə əmək haqqı borcu qalmamışdır.

GƏLİR VƏ XƏRCLƏRİN TƏHLİLİ

2023-cü ildə Mərkəz əsas fəaliyyətə aid işləri yerinə yetirmişdir. Mərkəzin il ərzində əsas əməliyyat gəliri 825097,00 manat olmuşdur. Sair əməliyyat gəlirləri 32238,00 manat olmuşdur. Dövlət büdcəsindən daxilolma (Mərkəzin xərclərinin qarşılanması məqsədi ilə) 1150000,00 manat olmuşdur. Cəmi gəliri 2007335,00 manat olmuşdur.

Mərkəzin 2023-cü ildə gəlirdən çıxılan xərcləri 2279778,41 manat olmuş və ümumi xərclərin icrası aşağıdakı kimi olmuşdur:

Xərclərin adı	manat	çəkisi (%)
Əmək haqqı	1690225,44	74,14
Dövlət Sosial Müdafiə Fonduna ayırmalar	369218,64	16,20
İşsizlikdən Sığorta haqqı	8451,13	0,37
İcbari tibbi Sığortası	33804,51	1,48
Elektrik enerjisi haqqının ödənilməsi	1678,22	0,07
Qaz xərcləri	1440,69	0,06
Su və kanalizasiya xərcləri	2,54	0,00
Kommunal xidmətlər	101,69	0,00
Yanacaq xərcləri	7512,14	0,33
Təmir xərcləri	13374,43	0,59
Rabitə xərcləri	618,78	0,03
Ekspertiza xərcləri	5665,96	0,25
Ezamiyyə xərcləri	88115,36	3,87
Mühafizə xərcləri	6683,04	0,29
Bank xərcləri	12813,00	0,56
Əsas vəsaitlərin amortisasiyası	19302,96	0,85
Azqiymətlinin silinməsi	2086,16	0,09
Sığorta xərcləri	145,54	0,01
Digər xərclər	18538,19	0,81
Cəmi	**2279778,41**	**100,00**

MƏNFƏƏT VERGİSİ

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" Publik Hüquqi Şəxs 2023-cü ildə -272443,41 manat zərərlə işləmişdir. Mərkəz üzrə hesabat ilində mənfəət vergisi hesablanmamışdır.

HESABLAŞMA VƏ KREDİT ƏMƏLİYYATI

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" Publik Hüquqi Şəxs bank kreditləri almamışdır.

Debitor borclar alıcılar və sifarişçilərlə hesablaşmadan yaranmış, kreditor borclar isə mal göndərənlər, podratçılar və digər kreditorlarla hesablaşmalardan yaranmışdır.

Hesablaşmalar müəssisələrlə bank hesablaşmaları ilə aparılmışdır.

Mərkəzin debitorlarla və kreditorlarla hesablaşmaları aşağıdakı kimidir:

	İlin əvvəlinə qalıq	Yaranan borclar	Ödənilən borclar	İlin sonuna qalıq
Debitor borclar:	**305874,76**	1423006,98	1525227,29	**203654,45**
o cümlədən vaxtı kecmiş				
Kreditor borclar:	**63418,00**	4432444,22	4477609,64	**18252,58**
o cümlədən vaxtı kecmiş				

DİGƏR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

Mərkəzin Digər qısamüddətli öhdəliklərinin hərəkəti aşağıdakı kimidir:

	İlin əvvəlinə qalıq	Yaranan borclar	Ödənilən borclar	İlin sonuna qalıq
Digər qısamüddətli öhdəliklər	**0,00**	148509,94	133636,06	**14873,88**

VERGİLƏR

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" Publik Hüquqi Şəxs Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq olaraq əlavə dəyər vergisi, muzdlu və muzdlu olmayan gəlirlərdən gəlir vergisi, bu gəlirlərlə əlaqədar sosial sığorta ayırmaları, vergi qanunvericiliyinin tələblərinə müvafiq olaraq dövlət rüsumlarının ödəyicisidir.

Mərkəzin vergi hesablamalarının hərəkəti aşağıdakı kimi olmuşdur:

	İlin əvvəlinə qalıq	Yaranan borclar	Ödənilən borclar	İlin sonuna qalıq
Vergilər	**59118,55**	391039,14	434200,88	**15956,81**

KAPİTALDA DƏYİŞİKLİK

Mərkəzin ümumi kapitalı onun ixtiyarında olan fond və rezervlərdən ibarətdir ki, bunlar da səhmdarların qoyduğu investisiya və sərəncamda qalan mənfəət hesabına formalaşır.

"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" Publik Hüquqi Şəxsin fondlar üzrə kapitalda dəyişikliyi aşağıdakı kimidir:

	Nizamnamə kapitalı	Ehtiyat kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi
01 dekabr 2023-cü ilə qalıq	**708232,00**	**25444611,23**	**441410,34**	**26594253,57**
Daxil olub	0,00	131737092,61	0,00	131737092,61
İstifadə olunub	0,00	157181703,84	375224,40	157556928,24
31 dekabr 2023-cü ilə qalıq	**708232,00**	**0,00**	**66185,94**	**774417,94**

Mərkəzin balansında ilin əvvəlinə Büdcədən məqsədli maliyyələşmələr və daxilolmalar üzrə qalıq 4235433,00 manat olmuşdur. Hesabat ilində büdcədən məqsədli maliyyələşmələr və daxil olmalar üzrə mədaxil 4809000,00 manat olmuşdur. Məxaric 3140143,69 manat olmuşdur. İlin sonuna Büdcədən məqsədli maliyyələşmələr və daxilolmalar üzrə qalıq 5904289,31 manat olmuşdur.

İdarə heyətinin sədri _____

Maliyyə və təminat şöbəsinin müdiri _____ M.Y.

Baş mühasib _____

2023-cü ilin maliyyə hesabatlarının auditinə dair yekun sənədlərin

T Ə H V İ L - Q Ə B U L AKTI

«İcraçı» Auditorlar Palatasının üzvü, Auditor E.Əliyev və «Sifarişçi» "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ bu aktı ona görə tərtib edirlər ki, «İcraçı» tərəfindən müqavilənin şərtlərinə uyğun olaraq audit aparılmışdır və yekun sənədlər təhvil verilmişdir.

Təhvil verdi:	**Təhvil aldı:**
«İcraçı»	**«Sifarşçi»** **"Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" PHŞ-nin**
Auditor	**İdarə Heyətinin sədri**
E. Əliyev	**T. İsalı**
M.Y.	**M.Y.**